UOT 635.21

# QARĞIDALI ƏKİNLƏRİNDƏ ALAQ OTLARINA QARŞI TƏTBİQ EDİLMİŞ HERBİSİDLƏRİN İQTİSADİ SƏMƏRƏLİLİYİ

**R.Ə.BAYRAMOV**
**Azərbaycan Dövlət Aqrar Universiteti**

*Aparılmış tədqiqatlarla müəyyən edilmişdir ki, Gəncə-Qazax bölgəsinin qarğıdalı əkinlərində birillik, ikiillik və çoxillik alaq otlarının iqtisadi göstəricilərinin hesablanması üçün məhsuldarlıq üzrə 2016-2018-ci illərdə tərəfimizdən aparılan təcrübələrdən alınan orta rəqəmlər götürülmüşdür.*

***Açar sözlər:*** *qarğıdalı, alaq otları, təcrübə, birillik, çoxillik, iqtisadi səmərəlilik.*

Çində 2012-ci ilin iyun ayında keçirilən herboloqların 6-cı beynalxalq konqrensində alaq otlarına qarşı mübarizə istiqamətində qarşıya qoyulan ən aktual məsələlər aşağıdakılar olmuşdur:

- Fərqli növlərdən olan alaqların və onların populyasiyalarının bioloji və fizioloji xüsusiyyətləri;
- alaq otlarına herbisidlərin təsir dərəcəsinin yüksəldilməsi yolları, dərmanların məsarif normalarının müəyyənləşdirilməsi, azaldılması zərurəti və əkinlərin çiləmə müddətinin optimallaşdırılması;
- alaqlarla mübarizədə herbisidlərin və onların birgə tətbiqi sisteminin səmərəliliyi.

Alaq otlarını məhv etmək üsüllarının seçimində birləşdirilmiş mübarizə sisteminin (inteqrir) əsas meyarlarından biri alaq otlarının kənd təsərrüfatına vurduğu itkini iqtisadi qiymətləndirməkdir. Alaqların inkişafı zamanı bütün aqrotexniki tədbirlərin səmərəliliyi – mineral və üzvi gübrələrin tətbiq edilməsi, meliorasiya, bitkilərin becərilməsi zamanı yüksək məhsuldar növlərin tətbiqi və yeni texniki üsullardan istifadə etmək azalır. Becərilən bitkilərin ziyanvericilərinin və xəstəliklərinin toplandığı yer olan alaqlar, onların yayılmasına səbəb olur, bununla da bitkilərin mühafizəsi üçün işlərin həcmini artırır.

Alaq otları ölkə iqtisadiyyatına böyük ziyan vurur. Ladoninin məlumatına görə əkinlərdə 100 əd/m$^2$ alaq otları olduqda, onların yaxşı inkişaf şəraiti olduqda torpaqdan qida elementlərini mənimsəmələri N-$NO_3$ 60-140 kq/ha, $P_2O_5$ 20-30, $K_2O$ 100-140 kq/ha olur.

Spiridonov və Şeştakovun qiymətləndirmələrinə görə keçən əsrin 90-cı illərində Rusiyada alaqların payına dənli bitkilərin mütləq itkisinin 15-18%, cərgəarası şumlanan bitkilərin isə 50% düşürdü. Həmçinin, 30 mln.ha artıq kənd təsərrüfat yerləri alaq otlarının yayılmasının daimi fəaliyyət göstərən mənbəyi olan yararsız torpaqlar kateqoriyasına keçmişdir.

ABŞ tədqiqatçılarının məlumatlarına görə Montana ştatında təxminən 2 mln.akr (1akr = 0,404ha) zibilləyən dayanıqlı alaq otlarının (Centaurea diffusa, C.maculosa, Acroptilon repens) yalnız üç növündən iqtisadi itki 42 mln. dollar miqdarında qiymətləndirilir.

Müasir şəraitdə məhsul artımından çox tətbiq edilən aqrotexniki üsulun iqtisadi səmərəliliyi oynayır. Əsas iqtisadi göstəricilər – 1ha-dan xalis gəlir, bitkinin becərilməsinin səmərəliliyi və s. Herbisidlərin tətbiqinin iqtisadi səmərəliliyi dərmanlara və onların tətbiq edilməsinə çəkilən xərcin qaytarılması ilə müəyyən olunur.İqtisadi göstəricilərin hesablanması üçün məhsuldarlıq üzrə 2016-2018-ci illərdə tərəfimizdən aparılan təcrübələrdən alınan orta rəqəmlər götürülmüşdür (Cədvəl).

İqtisadi səmərəlilik cədvəlindən 1 hektar sahə üçün tələb olunan preparatların məsarif norması və satış qiyməti verilmişdir. Kimyəvi mübarizədə əlavə xərclər orta hesabla 70 manat götürülmüşdür. Əlavə xərclərə çiləmə, suyunu daşınması, işçilərin zəhmət haqqı, yemək və süd pulu və s. daxildir. İqtisadi səmərəlilik cədvəlində preparatın texniki səmərəliliyi (tədqiqat illərinin orta göstəricisi), tədqiqat illərində əldə olunan məhsuldarlığın orta göstəricisi olan hektarın məhsuldarlığı və məhsulun satış qiyməti 0,40 Cədvəldən göründüyü kimi variantlar üzrə məhsuldarlıq qeyd edilmişdir.

Belə ki, Otason-1.5 litr məsarif normasında 77,8 sent/ha; Dualkom-1.0 litr məsarif normasında 77,6 sent/ha; Efdal Zalosuper-1.0 litr məsarif normasında 77,8 sent/ha; Bazaqran – 3.0 litr məsarif normasında 76,2 sent/ha; Bestamin 2.0 litr məsarif normasında 77,6 sent/ha; Veed killer 2.0 litr məsarif normasında 77,6 sent/ha; Milaqro – 1.5 l/ha məsarif normasında 77.4 sent/ha və nəzarət variantında isə qarğıdalının məhsuldarlığı 71,2 sent/ha olmuşdur.

Nəzarətlə müqaisədə variantlar üzrə məhsuldarlıq ardıcıl olaraq Otason -1.5 litr məsarif normasında 6.63 sent/ha əlavə məhsul əldə edilmişdir ki, bu da 265.2, manat deməkdir. Verilən rəqəmlər əsasında əlavə məhsul və əlavə məhsulun dəyəri müəyyən edilmişdir. Cədvəldə məhsulun maya dəyəri 300 manat götürülmüşdür. Əlavə məhsulun maya dəyərini tapmaq üçün məhsulun maya dəyərini hektardan

əldə olunan məhsuldarlığa bölüb əlavə məhsulun dəyərinə vurmaqla hesablanmışdır. İqtisadi səmərəlilik cədvəlində ümumi gəlir hektardan əldə olunan məhsuldarlığı məhsulun satış qiymətinə vurmaqla hesablanmışdır.

Apardığımız tədqiqat işlərində əldə etdiyimiz iqtisadi səmərəliliyinin rentabelliyini müəyyən etmək üçün xalis gəliri əlavə məhsulun maya dəyərinə bölüb 100-ə vurmaqla hesablanmışdır.

Hesablamalardan göründüyü kimi birillik və çoxillik alaqlarla son dərəcə alaqlanma zamanı herbisidlərin tətbiqinin iqtisadi səmərəliliyi olduqca yüksəkdir. Xüsusilə 1-ci, 2-ci, 3-cü, 5-ci, 6-cı və 7-ci variantlarda xalis gəlir və rentabellik yüksək olmuşdur.Bütövlükdə, tədqiqatın yekunlarına görə aşağıdakı nəticəyə gəlmək olar: birillik və çoxillik alaq növləri ilə son dərəcə siyarətlənmiş qarğıdalı əkinlərində herbisidlərin tətbiq olunması iqtisadi cəhətdən səmərəlidir və bütün təcrübə variantları üzrə əlavə gəlir əldə etməyə imkan verir. Birləpəli və ikiləpəli alaqların kopleksinə qarşı, təsir spektoru növ tərkibinə ən çox uyğun gələn herbisidlərə üstünlük vermək lazımdır, bizim 3-illik müşahidələrimizin nəticəsində bunların Otason, Dualkom, Efdal Zalosuper, Bestamin, Veed killer və Milaqro olduğunu gördük.

**Qarğıdalı əkinlərində birillik və çoxillik alaq otlarına qarşı herbisidlərin tətbiqinin iqtisadi səmərəliliyi (2018-ci il)**

| Variantlar | Preparatın satış qiyməti | Preparatın məsarif norması, l/ha, | Kimyəvi mübarizədə əlavə xərclər, man. | Kimyəvi mübarizəyə çəkilən ümumi xərclər.man | Hektardan çəhsuldarlıq, kq/ha | Məhsulun satış qiyməti, kq/man. | Əlavə məhsul, kq/ha | Əlavə məhsulun dəyəri, man. | Məhsulun maya dəyəri,man. | Əlavə məhsulun maya dəyəri, man. | Ümumi glir, man. | Xalis glir, man. | Rentabellik, % |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| Otason | 30 | 1.5 | 70 | 100 | 7785 | 0,4 | 463 | 185.2 | 300 | 17.8 | 3114.0 | 265.2 | 157.2 |
| Dualkom | 20 | 1.0 | 70 | 90 | 7762 | 0,4 | 440 | 176.0 | 300 | 17.0 | 3104.8 | 255.2 | 158.0 |
| Efdal Zalosuper | 22 | 1.0 | 70 | 92 | 7782 | 0,4 | 460 | 184.0 | 300 | 17.7 | 3112.8 | 263.2 | 157.2 |
| Bazaqran | 24 | 3.0 | 70 | 94 | 7627 | 0,4 | 305 | 122.0 | 300 | 11.9 | 3050.8 | 201.2 | 165.9 |
| Bestamin | 26 | 2.0 | 70 | 96 | 7764 | 0,4 | 442 | 176.8 | 300 | 17.0 | 3105.6 | 256.8 | 158.0 |
| Veed killer | 30 | 2.0 | 70 | 100 | 7767 | 0,4 | 445 | 178.0 | 300 | 17.1 | 3106.8 | 258.0 | 157.0 |
| Milaqro | 30 | 1.5 | 70 | 100 | 7742 | 0,4 | 420 | 168.0 | 300 | 16.2 | 3096.8 | 247.2 | 158.8 |
| Nəzarət | - | su | - | - | 7122 | 0,4 | - | - | - | - | 2848.8 | - | - |

**ƏDƏBİYYAT**

1. Ломовской Д. В. Повышения рентабельности производства кукурузы, за счет применения гербицидов в условиях центральной зоны Краснодарского края. Зерновое хозяйство России–2013,№2 – С,51-54. 2. Ломовской Д.В. Урожайность кукурузы в зависимости от применения гербицидов. Применения средств химизации в современных технологиях возделывания с-х культур: Сб. науч. Тр.- Москва, 2012. С. 122-124. 3. Нечаев, В.Ф Эффективность технологий возделывания кукурузы/ В.Ф. Нечаев // Кукуруза и сорго, 2001.- №3, С.2-5. 4. Синеголовский М.О. Экономическая оценка эффективности применения гербицидов на кукурузе. //Земледелие -2013. - № 7. С.35-37. 5. Цинков В.С., Матюха Л.А. Интенсивная технология возделывания кукурузы. М.: ВО Агропромиздат, 1989. 247с.

**Экономическая эффективность применения гербицидов на посадках кукурузы против сорных растений.**

**Р. А. Байрамов**

Для определения экономической эффективности гербицидов применённых против однолетних и многолетних сорных растений в 2016-2018 годах, нами были средние показатели полученные за 3 года. Как видно из таблицы, экономическая эффективность при применении гербицидов против однолетних и многолетних сорняков была на высоком уровне. Так в 1-ом, 2-ом, 3-ем, 5-ом,6-ом и 7-ом вариантах чистый доход и рентабельность была высокой.

***Ключевые слова:*** *кукуруза, сорные растения, однолетние, многолетние, экономическая эффективность.*

**The economic efficiency of the used herbicides against weed on maize**

**R.A.Bayramov**

To determine the economic efficiency of herbicides used against annual and perennial weeds in 2016-2018, we took the average results for 3 years. As can be seen from the table, the economic efficiency in the application of herbicides against annual and perennial weed was at a high level. So in the 1st, 2nd, 3rd, 5th, 6th and 7th variants net income and profitability was high.

***Key words:*** *maize, weed, annual, perennial, economic efficienc.*